**“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hüquq xidmətlərinin satınalınmasına dair kotirovka (açıq müsabiqə) elan edir.**

**I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:**

● Müsabiqədə iştirak haqqında müraciət (*forma əlavə olunur*);

● İddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış – bütün dəyişiklik və əlavələrlə birlikdə) müəssisə möhürü ilə təsdiqlənmiş surətləri, vergi arayışı, bank rekvizitləri və maddi-məsul şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti, sertifikat (və / və ya mal, iş və ya xidmət ilə bağlı lisenziya və s. tələb olunursa);
●Müsabiqə təklifi.

***Qeyd:*** *Təqdim edilməli bütün sənədlərin imza, müəssisə möhürü, tarix və “əsli ilə düzdür” ifadəsi olmalıdır*

İlkin mərhələdə müsabiqədə iştirak haqqında müraciət və adları qeyd olunmuş hüquqi sənədlər *(müsabiqə təklifi istisna olmaqla)* **11 iyun 2024-cü il** saat 17:00-dək, iştirak haqqında müraciəti və hüquqi sənədləri (*imzalı, möhürlü*) qeyd olunan vaxta qədər təqdim etmiş iddiaçılar tərəfindən müsabiqə təklifləri (əsli) bağlı zərfdə **13 iyun 2024-cü il** saat 17:00-a qədər “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin yerləşdiyi ünvana (*Nəsimi rayonu, Ü.Hacıbəyov 140, AZ1010*) təqdim olunmalıdır.
Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan **geri qaytarılacaqdır.**

**II. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:**

Zərflərin açılışı **14 iyun 2024-cü il** tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın I bölməsində göstərilmiş ünvanda baş tutacaqdır.

**Zərflərin açılışında iştirak etmək istəyən şəxslər barədə öncədən təmsil edəcəyi müəssisə tərəfindən əlaqələndirici şəxsin elektron ünvanına məlumat göndərilməlidir (şəxsiyyət vəsiqəsinin “scan”-ı). İştirakı nəzərdə tutulan şəxsin şəxsiyyət vəsiqəsi və etibarnamə üzərində olmalıdır.*
**Komissiyanın qərarı bildiriş məktubu olaraq bütün iştirakçılara göndərilir.*

**Əlaqələndirici şəxs:**

Elnarə Sərdarova - Satınalmalar şöbəsinin aparıcı mütəxəssisi
Əlaqə nömrəsi: +994 12 599 00 03 (3704) , +99455 206 24 70
Elektron ünvan: **esardarova@portofbaku.com**

*(İddiaçının rəsmi blankında)*

**AÇIQ MÜSABİQƏDƏ (KOTİROVKA SORĞUSU) İŞTİRAK ETMƏK ÜÇÜN MÜRACİƏT MƏKTUBU**

___________ şəhəri                                                  “__”_______20__-cü il

___________№

**“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin**
**Satınalma Komissiyasının Sədri**
**cənab S.Ismayılova**

Hazırkı məktubla *(iddiaçı malgöndərənin (podratçının) tam adı göstərilir)* olaraq “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hüquq xidmətlərinin satınalınması” ilə əlaqədar “4” iyun 2024-cü il tarixdə elan edilmiş açıq müsabiqədə (kotirovka) sorğusunda iştirak niyyətimizi təsdiq edirik.

Eyni zamanda *(iddiaçı malgöndərənin (podratçının) tam adı göstərilir)* ilə münasibətdə hər hansı ləğv etmə və ya müflislik prosedurunun aparılmadığını, fəaliyyətinin dayandırılmadığını, əmlakı üzərində həbsin qoyulmadığı, ödənişə yönəlmiş girovun olmadığını və sözügedən satınalma müsabiqəsində iştirakını qeyri-mümkün edəcək hər hansı bir halın mövcud olmadığını təsdiq edirik.

Əlavə olaraq, təminat veririk ki, *(iddiaçı malgöndərənin (podratçının) tam adı göstərilir)* “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-dən hüquqi, maliyyə və təşkilati asılılığı olan şəxs deyildir.

Tərəfimizdən təqdim edilən sənədlər və digər məsələlərlə bağlı yaranmış suallarınızı cavablandırmaq üçün əlaqə:

- Əlaqələndirici şəxs:
- Əlaqələndirici şəxsin vəzifəsi:
- Telefon nömrəsi:
- E-mail:

________________________________ *(səlahiyyətli şəxsin A.A.S)*

________________________________ *(səlahiyyətli şəxsin imzası)*

________________________________ *(səlahiyyətli şəxsin vəzifəsi)*

***M.Y.***